UOT 94
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5056

# MƏRKƏZİ ASİYANIN QƏRBLƏ İNTEQRASİYASINDA QAZAXISTAN – AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİN YERİ (1991-2022)

**ƏSMƏR VÜQAR QIZI ŞÜKÜRLÜ**
*Bakı Dövlət Universitetinin doktorantı*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: Asmarshukurlu@gmail.com*
*Orcid: 0009-0006-2613-5984*

## XÜLASƏ

Tədqiqat işində müstəqillik qazanıldıqdan sonra Qazaxıstan və Azərbaycan arasında formalaşan ikitərəfli münasibətlərin tarixi inkişafı, geoiqtisadi əsasları və strateji tərəfdaşlıq perspektivləri kompleks şəklində təhlil olunmuşdur. Məqalədə 1991-2022-ci illəri əhatə edən dövrdə Bakı və Astana arasında siyasi dialoqun inkişaf mərhələləri, hüquqi-normativ bazanın qurulması və beynəlxalq təşkilatlar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində çoxtərəfli əməkdaşlıq məsələləri araşdırılmışdır. İşdə regional nəqliyyat-logistika şəbəkələrinin, o cümlədən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) və gələcək Zəngəzur dəhlizinin Avrasiya geosiyasətindəki rolu Qazaxıstanın strateji maraqları müstəvisində qiymətləndirilmişdir. Eyni zamanda, karbohidrogen resurslarının Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə tranziti, yaşıl enerji layihələri və mədəni-humanitar diplomatiyanın hər iki dövlətin Qərblə inteqrasiyasındakı mühüm rolu elmi cəhətdən əsaslandırılmışdır. Yekunda iki ölkə arasındakı müttəfiqlik münasibətlərinin regional sabitliyin təmin olunmasındakı geostrateji əhəmiyyətinə dair elmi ümumiləşdirmələr aparılmışdır.

**Açar sözlər:** *Qazaxıstan, Azərbaycan, strateji müttəfiqlik, Türk Dövlətləri Təşkilatı, regional inteqrasiya, Orta Dəhliz, Zəngəzur dəhlizi, enerji təhlükəsizliyi, qlobal inteqrasiya.*

## GİRİŞ

Müasir beynəlxalq münasibətlər sistemində Avrasiya məkanının geosiyasi arxitekturası köklü dəyişikliklərə məruz qalmış və qlobal güclər arasında ziddiyyətlər yeni müstəviyə keçmişdir. Xüsusilə, son illərdə qlobal və regional səviyyədə kəskinləşən hərbi-siyasi qarşıdurmalar, beynəlxalq təhlükəsizlik sistemini sarsıtmaqla yanaşı, qlobal tədarük zəncirlərinin və logistik marşrutların strukturunu da yenidən formalaşdırmağı zəruri edir. 2022-ci ildən etibarən pik həddə çatan Rusiya-Ukrayna müharibəsi və eyni zamanda Yaxın Şərqdə, xüsusilə İran-ABŞ xəttində artan hərbi-siyasi gərginlik riskləri regional sabitliyə birbaşa təsir göstərir. Bu böhranlar Avrasiya qitəsində onilliklər boyu istifadə edilən ənənəvi “Şimal” (Rusiya Federasiyası ərazisindən keçən Trans-Sibir xətti) və “Cənub” (İran İslam Respublikası ərazisindən keçən) nəqliyyat dəhlizlərinin təhlükəsizliyini, kommersiya baxımdan cəlbediciliyini və dayanıqlılığını ciddi sual altında qoymuşdur. Beynəlxalq sanksiyalar və geosiyasi risk amili nəticəsində Qərb dövlətləri və böyük logistik şirkətlər Rusiya marşrutundan imtina etmək məcburiyyətində qalmış, bu isə alternativ və təhlükəsiz tranzit yollarının axtarışını sürətləndirmişdir. Belə bir mürəkkəb və proqnozlaşdırılması çətin olan geosiyasi şəraitdə Mərkəzi Asiya regionunun dünya bazarlarına, xüsusilə Qərb məkanına inteqrasiyası strateji bir zərurətə çevrilmişdir [4]. Mərkəzi Asiya dövlətləri xarici iqtisadi və siyasi asılılıqdan yayınmaq, ixrac marşrutlarını şaxələndirmək üçün mütləq koordinasiyalı fəaliyyət göstərməlidir. Məhz bu məqamda Xəzər dənizinin iki sahilini birləşdirən və geostrateji mövqeyə malik olan Qazaxıstanla Azərbaycan bu inteqrasiya prosesinin əsas lokomotivləri və Şərqlə Qərb arasında qurulan “strateji körpü”nün kilid nöqtələri kimi ön plana çıxır. Hər iki dövlət həm öz milli maraqlarını qorumaq, həm də regional subyekt kimi qlobal iqtisadiyyatda yerlərini möhkəmləndirmək üçün unikal coğrafi mövqelərindən geosiyasi alət kimi istifadə edir.

1991-ci ildə müstəqilliyin bərpasından başlayaraq 2022-ci ilə qədər olan otuz illik tarixi dövrü nəzərdən keçirəndə görürük ki, Bakı və Astana arasında qurulan tərəfdaşlıq formatı yalnız regional əməkdaşlıq çərçivəsi ilə məhdudlaşmır. Bu münasibətlər eyni zamanda, beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında, Avropanın enerji ehtiyatlarının şaxələndirilməsində və qlobal xarakterli nəqliyyat-kommunikasiya layihələrinin reallaşmasında həlledici qlobal faktora çevrilmişdir. Müstəqilliyin ilk illərində daxili siyasi sabitliyi qorumağa və iqtisadi böhranların aradan qaldırmağa çalışan hər iki respublika, növbəti mərhələlərdə regionun geosiyasi oyunçularına çevrilmiş və xüsusilə Xəzər dənizi hövzəsində təhlükəsizliyin, sülhün və iqtisadi əməkdaşlığın qarantı rolunu üzərlərinə götürmüşdür[10].

Tədqiqatın xronoloji çərçivəsinin 1991-2022-ci illəri əhatə etməsi xüsusi əhəmiyyət daşıyır. 1991-ci il hər iki ölkə üçün suverenliyin və müstəqil xarici siyasət xəttinin başlanğıcıdırsa, 2022-ci il həm qlobal geosiyasi qırılmaların pik nöqtəsi, həm də Azərbaycan – Qazaxıstan münasibətlərinin müttəfiqlik

səviyyəsinə yüksəlməsi ilə xarakterizə olunan yeni bir mərhələnin başlanğıcıdır. Beləliklə, təqdim olunan elmi məqalədə Mərkəzi Asiyanın Qərblə inteqrasiya prosesində Qazaxıstan – Azərbaycan münasibətlərinin yeri, rolu və perspektivləri siyasi, iqtisadi, logistik və institusional aspektlərdən sistemli şəkildə təhlil ediləcəkdir.

**Müstəqillik illərində Qazaxıstan – Azərbaycan siyasi münasibətlərin dinamikası və diplomatik əlaqələrin təkamül mərhələləri**. 1991-ci ilin dekabrında SSRİ-nin süqutu ilə eyni vaxtda Avrasiya regionunun geosiyasi mənzərəsi köklü şəkildə dəyişdi və yeni müstəqil subyektlərin meydana gəlməsi ilə nəticələndi. Dövlət suverenliyini elan edən Qazaxıstan və Azərbaycan öz milli maraqlarına uyğun xarici siyasət kursu formalaşdıraraq, qısa müddətdə bir-birlərinin müstəqilliyini tanıdı və rəsmi diplomatik əlaqələrin əsasını qoydu. Müstəqilliyin ilk illəri (1991-1993) hər iki respublika üçün daxili siyasi qeyri-sabitlik, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və iqtisadi böhranlar fonunda keçən mürəkkəb bir “strateji axtarışlar” dövrü olmuşdur. Lakin 1993-cü ildə Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin praqmatik yanaşması iki ölkə arasında etimada əsaslanan “şəxsi dostluq diplomatiyası”nın əsasını qoydu [8].

İkitərəfli əlaqələrin hüquqi bazasının möhkəmlənməsində ilk mühüm addım 1996-cı il sentyabrın 16-da Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı atıldı. Səfər çərçivəsində imzalanmış “Dostluq və əməkdaşlıq haqqında Müqavilə” tərəflərin bir-birinin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanımasını təsbit etməklə yanaşı, həm də Azərbaycan üçün Qarabağ münaqişəsi kontekstində mühüm diplomatik dəstək mənası daşıyırdı [10]. Bunun ardınca, 1997-ci ilin iyununda Heydər Əliyevin Qazaxıstana rəsmi səfəri zamanı neft tranziti və nəqliyyat dəhlizləri üzrə əldə olunmuş razılaşmalar, siyasi dialoqu iqtisadi müstəviyə daşıyaraq tərəfdaşlığı daha da dərinləşdirdi [7].

XXI əsrin başlanğıcı ilə bərabər Bakı və Astana arasında əlaqələr daha çoxtərəfli və institusional xarakter almışdır. Bu dövrdə Xəzər dənizinin dibinin bölünməsi məsələsində hər iki dövlətin nümayiş etdirdiyi ortaq kompromis mövqe (2001 və 2003-cü il ikitərəfli sazişləri) digər sahilyanı ölkələr üçün hüquqi nümunə rolunu oynamışdır. 2000-ci illərin ortalarından etibarən Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri vasitəsilə dünya bazarlarına çıxarılması layihəsi bu əməkdaşlığı qlobal enerji təhlükəsizliyinin mühüm faktoruna çevirdi. Siyasi münasibətlərin institusionallaşmasının ən böyük sütunu isə türk dünyasının inteqrasiyasında göstərdi. 1992-ci ildən başlayan Türkdilli Dövlət başçılarının Zirvə Görüşləri prosesi, 2009-cu il oktyabrın 3-də imzalanan tarixi Naxçıvan Sazişi ilə yeni bir mərhələyə qədəm qoydu və Türk Dövlətləri Təşkilatının (TDT) qurulmasının hüquqi əsasını formalaşdırdı. Bakı və Astana bu platformada regional inteqrasiyanın aparıcı mühərrikləri kimi çıxış etməyə başladılar [3].

2020-ci ildə İkinci Qarabağ müharibəsinin yekunları Cənubi Qafqazda və bütövlükdə Avrasiyada tamamilə yeni bir geosiyasi reallıq və təhlükəsizlik arxitekturası yaratdı. Qazaxıstan bu yeni regional status-kvonu və Azərbaycanın ərazi bütövlüyünün bərpasını haqlı mövqe olaraq tam dəstəklədi [9]. Bu yeni şəraitdə iki ölkə arasında otuz illik diplomatik əlaqələrin məntiqi zirvəsi kimi 2022-ci il avqustun 24-də Bakıda rəsmi sənəd – “Strateji münasibətlərin dərinləşdirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” imzalandı. Bu sənəd sadəcə ikitərəfli tərəfdaşlığı müttəfiqlik səviyyəsinə qaldırmır, həm də Türk Dünyası Baxışı – 2040 strateji sənədinin hədəflərinə uyğun olaraq, hərbi-siyasi, logistik və iqtisadi sahələrdə daimi koordinasiyanı təmin edən qlobal idarəetmə mexanizmini işə salır [1].

**Avrasiya Nəqliyyat Şəbəkəsində Trans-Xəzər Marşrutunun infrastruktur sütunları və yeni geosiyasi reallıqlar.** Müasir dövrdə regional təhlükəsizlik və iqtisadi asılılıq şəraitində nəqliyyat-logistika infrastrukturu dövlətlərarası münasibətlərin ən həlledici sütunlarından birini təşkil edir. Qazaxıstan və Azərbaycan arasındakı coğrafi yaxınlıq və Xəzər dənizi faktoru, hər iki dövləti tranzit marşrutların mərkəzi qovşağına çevirmişdir. Bu kontekstdə, xüsusilə Çindən başlayaraq Mərkəzi Asiya, Xəzər dənizi, Cənubi Qafqaz və Türkiyə üzərindən Avropaya qədər uzanan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (“Orta Dəhliz”) inkişafında hər iki ölkənin koordinasiyalı fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. Qlobal geosiyasi gərginliklərin və ənənəvi şimal marşrutlarının risklərinin artması fonunda bu koridor, Avrasiya qitəsində həm iqtisadi baxımdan səmərəli, həmdə təhlükəsiz alternativ kimi ön plana çıxmışdır.

Orta Dəhlizin quru və dəniz seqmentlərinin inteqrasiyasını təmin edən əsas infrastruktur layihəsi Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolu xəttidir. Bu xətt Mərkəzi Asiyadan, xüsusilə Qazaxıstandan gələn yüklərin birbaşa və kəsintisiz şəkildə Türkiyə və Avropa bazarlarına çatdırılmasını təmin edən qlobal bir arteriyadır. Bu logistik zəncirin tamamlanmasında digər strateji həlqə isə Xəzər dənizindəki liman şəbəkəsidir. Azərbaycanın Ələt Beynəlxalq Dəniz Ticarəti Limanı Qazaxıstanın Aktau və Kurık limanları arasında qurulan daimi bərə koster daşımaları bu prosesin əsasını təşkil edir. Hər iki ölkə limanlararası

koordinasiyanı gücləndirməklə yüklərin qəbulu və dəmiryoluna ötürülməsi müddətini minimuma endirməyə nail olmuşdur [4].

Logistik inteqrasiyanın digər mühüm istiqaməti isə multimodal daşımaların effektivliyini artırmaq məqsədilə Azərbaycan, Qazaxıstan və Gürcüstanın birgə qurduğu "Middle Corridor Multimodal Ltd." birgə müəssisəsidir. Bu strukturun yaradılması dəhliz boyu vahid operator prinsiplərinin tətbiqinə, tariflərin optimallaşdırılmasına və rəqəmsal texnologiyaların tətbiqi ilə sənədləşmə prosesinin (e-CMR və rəqəmsal gömrük bəyannamələri) sürətləndirilməsinə xidmət edir. Eyni zamanda, nəqliyyat marşrutlarının təhlükəsizliyi və effektiv idarə olunması rəqəmsal infrastrukturla birbaşa bağlıdır [5]. Bu çərçivədə, Xəzər dənizinin dibi ilə Qazaxıstan və Azərbaycan arasında çəkilməsi planlaşdırılan fiber-optik rabitə xətti layihəsi ("Rəqəmsal İpək Yolu" – Digital Silk Way) sadəcə iki ölkə arasında deyil, həm də Avropa ilə Asiya arasında rəqəmsal data tranzitini təmin edəcəkdir [6].

2020-ci il Qarabağ müharibəsindən sonra Cənubi Qafqazın nəqliyyat xəritəsində meydana çıxan ən mühüm geostrateji reallıqlardan biri də Zəngəzur Dəhlizi layihəsidir. Bu dəhliz regional kommunikasiyaların açılması kontekstində sadəcə Azərbaycanın əsas ərazisi ilə onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirən daxili layihə deyil, həm də Avrasiya miqyasında Şərq-Qərb koridorunun effektivliyini artıran qlobal bir arteriyadır. Qazaxıstan üçün Zəngəzur dəhlizi Orta Dəhlizin şaxələndirilmiş və alternativ qollarla gücləndirilməsi deməkdir. Hazırda Aktau və Kurık limanlarından gələn yüklər Bakı limanına daxil olduqdan sonra əsasən Gürcüstan ərazisindən keçərək Qərbə doğru istiqamətlənir. Zəngəzur dəhlizinin tam gücü ilə fəaliyyətə başlaması isə Qazaxıstan ixracatçılarına Azərbaycan Bakı və Astananın bu dəhliz ətrafındakı maraq birliyi Türk Dövlətləri təşkilatının (TDT) "Türk Dünyası Baxışı – 2040" strateji sənədində rəsmən təsbit olunmuş inteqrasiya hədəflərinə xidmət edir [2]. Zəngəzur dəhlizi türk dünyasının coğrafi baxımdan kəsintisiz quru əlaqəsini təmin edəcək tarixi bir layihədir. Astananın bu layihəyə praqmatik dəstəyi onun həm Cənubi Qafqazda sülh və sabitliyin tərəfdarı olduğunu nümayiş etdirir, həm də Mərkəzi Asiya regionunun Avropa ilə nəqliyyat asılılığını təhlükəsiz şəkildə formalaşdırmaq istəyindən xəbər verir. Beləliklə, beynəlxalq maliyyə institutlarının və Dünya Bankının hesabatlarında da vurğulandığı kimi, vahid rəqəmsal gömrük sistemlərinin tətbiqi və Zəngəzur dəhlizi kimi yeni marşrutların açılması Trans-Xəzər xəttini qlobal iqtisadi sistemin əvəzolunmaz hissəsinə çevirir[4].

**Regional enerji təhlükəsizliyi müstəvisində karbohidrogen resurslarının tranziti və iqtisadi-ticari əməkdaşlıq fəaliyyətinin müxtəlif istiqamətlərdə genişləndirilməsi**. Azərbaycan və Qazaxıstanın strateji tərəfdaşlığının iqtisadi sütununu hər iki dövlətin zəngin karbohidrogen resurslarına malik olması və qlobal enerji bazarındakı mühüm mövqeyi formalaşdırır. Avrasiyanın enerji xəritəsində mühüm rol oynayan bu iki ölkə, təkcə xammal ixracatçısı kimi deyil, həm də neft və qaz resurslarının beynəlxalq bazarlara təhlükəsiz və şaxələndirilmiş yollarla çatdırılmasında bir-biri üçün əvəzolunmaz tranzit tərəfdaşlarıdır. Xüsusilə, Qazaxıstan neftinin hasilat həcminin artması və ənənəvi şimal ixrac boru kəmərlərinin geosiyasi risklərlə üzləşməsi, Astananın öz enerji resurslarını cənub-qərb istiqamətinə - Xəzər dənizi və Azərbaycan üzərindən keçən marşrutlara yönəltməsini strateji zərurətə çevirmişdir.

Bu müstəvidə ən uğurlu layihə Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə dünya bazarlarına daşınmasıdır. İki ölkə arasında əldə olunmuş dövlətlərarası razılaşmalara əsasən, Tengiz və Kaşaqan yataqlarından hasil edilən xam neft Aktau limanından tankerlər vasitəsilə Səngəçal terminalına gətirilir və buradan da BTC xəttinə vurulur. Son illərdə bu marşrut üzrə daşınma həcmlərinin mərhələli şəkildə artırılması, Bakı və Astananın qlobal enerji təhlükəsizliyindəki şəbəkə rolunu daha da gücləndirmişdir. Bununla yanaşı tərəflər yaşıl enerji keçidini də diqqətdə saxlayırlar. Xəzər dənizinin dibi ilə çəkilməsi planlaşdırılan "yaşıl enerji dəhlizi" layihəsi vasitəsilə Mərkəzi Asiyanın bərpa olunan enerji potensialının Azərbaycan üzərindən Avropaya ixracı istiqamətində ciddi texniki-iqtisadi əsaslandırma işləri aparılır.

İqtisadi-ticari münasibətlərin şaxələndirilməsi baxımından isə ikitərəfli ticarət dövriyyəsinin həcmi ildən ilə artaraq yeni rekordlara imza atır. Qazaxıstan və Azərbaycan arasında yaradılmış Hökumətlərarası Müştərək İqtisadi Komissiya ticarət əlaqələrinin tənzimlənməsində və investisiya layihələrinin təşviqində mərkəzi koordinasiya mexanizmidir. Hazırda metallurgiya, maşınqayırma, kənd təsərrüfatı və qida sənayesi sahələrində qarşılıqlı investisiya qoyuluşları aktivləşmişdir. Həmçinin, Bakı və Astana sənaye zonaları arasında əməkdaşlıq sənədlərinin imzalanması və birgə ticarət evlərinin açılması, iki ölkənin qeyri-neft sektorundakı potensialını tam reallaşdırmağa və qarşılıqlı ticarət dövriyyəsini qısa müddətdə 1 milyard dollar səviyyəsinə çatdırmağa xidmət edir [3].

**Qazaxıstan-Azərbaycan münasibətlərində mədəni-humanitar diplomatiya və ortaq türk irsinin qlobal müstəvidə rolu**. Qazaxıstan və Azərbaycan arasındakı strateji tərəfdaşlığın mənəvi təməlini çoxəsrlik tarixi köklərə, ortaq dil, din mədəniyyət və

etnik bağlara söykənən sarsılmaz münasibətlər təşkil edir. Siyasi və iqtisadi platformalarda əldə olunmuş uğurların cəmiyyətlər tərəfindən dərk edilməsi və uzunmüddətli olması məhz mədəni-humanitar diplomatiyanın effektivliyindən asılıdır. Müstəqillik illərində Bakı və Astana bu istiqamətdə təkcə ikitərəfli layihələrlə məhdudlaşmamış, həm də TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu kimi beynəlxalq təşkilatlar çərçivəsində ortaq sivilizasiya dəyərlərini qlobal miqyasda təbliğ etmək xətti yürütmüşlər.

Mədəni əlaqələrin inkişafı hər iki dövlətin Qərb dünyası və qlobal birliklə münasibətlərində mühüm strateji alət rolunu oynayır. Müasir beynəlxalq münasibətlərdə subyektlərin yalnız iqtisadi resursları ilə deyil, həm də özünəməxsus mədəni kimliyi ilə qlobal sistemə inteqrasiya olunması tələb edilir. Qazaxıstan və Azərbaycan öz ortaq irsini on plana çıxarmaqla, Qərbə və digər qlobal güclərə Şərqlə Qərb arasında dünyəvi, mütərəqqi, tolerant və dialoqa açıq bir İslam-Türk modeli təqdim edirlər. Bu baxımdan, Avropa İttifaqı və YUNESKO kimi beynəlxalq təsisatlarla keçirilən birgə mədəniyyət günləri, forumlar və sərgilər hər iki ölkənin beynəlxalq imicini gücləndirir və onları postsovet qəliblərindən uzaqlaşdıraraq qlobal mədəniyyətin ayrılmaz tərkib hissəsinə çevirir [12].

İkitərəfli humanitar əlaqələrin praktiki müstəvidə inkişafı isə elm, təhsil və yaradıcılıq sahələrindəki intensiv mübadilələrdə özünü göstərir. Qarşılıqlı olaraq keçirilən mədəniyyət günləri, hər iki xalqın yazıçı, şair mütəfəkkirlərinin irsinin öyrənilməsi və xatirələrinin əbədiləşməsi bu inteqrasiyanın bariz nümunəsidir. Təhsil sahəsində universitetlərarası birbaşa əlaqələrin qurulması, tələbə mübadiləsi proqramları və birgə elmi tədqiqatların aparılması gənc nəslin bir-birinə yaxınlaşmasını tələb edir. Beləliklə, Bakı və Astananın rəhbərlik etdiyi mədəni-humanitar diplomatiya sadəcə iki qardaş xalqın mənəvi birliyini qorumur, həm də regional inteqrasiyanı sivilizasiyalararası dialoq səviyyəsinə qaldıraraq iki ölkənin qlobal dünyada müstəqil subyektlər kimi mövqeyini möhkəmləndirir [5].

## Nəticə

Qazaxıstan və Azərbaycan arasında müstəqillik illərindən etibarən formalaşan ikitərəfli münasibətlərin təhlili göstərir ki, hər iki dövlət ötən 30 ildən artıq dövr ərzində regional tərəfdaşlıqdan strateji müttəfiqlik səviyyəsinə yüksələn uğurlu bir inkişaf yolu keçmişdir. 1990-cı illərin daxili və xarici siyasi böhranları şəraitində əsası qoyulan diplomatik əlaqələr, bu gün artıq Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və iqtisadi inteqrasiyanın əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Bu uğurlu inkişafın əsasında həm iki xalqın tarixi-mədəni mənsubiyyəti, həm də dövlət rəhbərlərinin praqmatik və uzaqgörən geosiyasi strategiyaları dayanır.

Aparılan tədqiqat nəticəsində aşağıdakı fundamental elmi nəticələrə gəlinmişdir:

1. Siyasi müstəvidə: Bakı və Astananın çoxtərəfli xarici siyasət kursu və 2022-ci il Bakı Bəyannaməsi iki ölkə arasındakı münasibətləri sarsılmaz müttəfiqlik statusuna çatdırmışdır. Qazaxıstanın Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləməsi bu etimadın ən bariz təzahürüdür.

2. Geoiqtisadi və logistik müstəvidə: Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişafı, Bakı-Tbilisi-Qars dəmiryolu xətti, liman infrastrukturunun genişləndirilməsi və Zəngəzur dəhlizinin gələcək perspektivləri hər iki dövləti Avrasiya nəqliyyat şəbəkəsinin əvəzolunmaz qovşağına çevirmişdir.

3. Enerji sahəsində: Qazaxıstanın karbohidrogen resurslarının Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə tranziti və gələcək “yaşıl enerji dəhlizi” layihələri qlobal enerji təhlükəsizliyində mühüm rol oynayır və hər iki ölkənin Qərbə inteqrasiyasını sürətləndirir.

4. Mədəni-humanitar müstəvidə: TÜRKSOY və Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq türk irsinin qorunması və dünyəvi mütərəqqi modelin qlobal arenada təbliği hər iki respublikanın beynəlxalq nüfuzunu gücləndirən ən böyük “yumşaq güc” alətidir.

Yekun olaraq qeyd etmək olar ki, Qazaxıstan - Azərbaycan strateji tərəfdaşlığı regional çərçivədən çıxaraq qlobal xarakter almışdır. İki qardaş dövlətin formalaşdırdığı bu ittifaq həm Türk dünyasının “2040 Baxışı” strateji hədəflərinə çatmağa xidmət edir, həm də Şərqlə Qərb arasında kəsintisiz, təhlükəsiz və dayanıqlı bir əməkdaşlıq körpüsü rolunu oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlər və müttəfiqlik qarşılıqlı əlaqələrin dərinləşdirilməsi haqqında Bəyannamə. Bakı, 24 avqust 2022-ci il.*

2. *“Türk Dünyası Baxışı – 2040” Strateji sənədi// Türk Dövlətləri Təşkilatının VIII İstanbul Zirvə Görüşünün Bəyannaməsi (2021).*

3. *Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Müştərək Komissiyanın rəsmi materialları (2022-2025).*

4. *World Bank. The Middle Corridor: Policy and Investment Priorities for the Trans-Caspian Transport Route. Washington, D.C.: World Bank Group.*

5. *"Middle Corridor Multimodal Ltd." Birgə müəssisəsinin logistik hesabatları və fəaliyyət planı (2023-2024).*

6. *"Rəqəmsal İpək Yolu" (Digital Silk Way)regional telekommunikasiya layihəsinin əsasnaməsi və texniki-iqtisadi əsaslandırılması.*

7. *Aliyeva N. Azerbaijan – Kazakhstan Relations: Geopolitical and Geo-economic Dimensions in the Caspian Region. Journal of Caucasian Studies, 2021, 6(2), 45-62.*

8. *Назарбаев, Н. А. Эра независимости. Алматы: Атамура, 2019*

9. *Tokayev, K, K. Under the Banner of Independence. Astana: Kazinform.*

10. *Həsənov Ə. Azərbaycanın xarici siyasəti: meyar və prinsipləri. Bakı: Zərdabi LTD, 2015.*

11. *Eurasian Economic Review. Energy Security and Trans-Caspian Cooperation: Baku and Astana Perspectives. Vol.12, No.3, pp. 112-130.*

12. *Sultanov, B. Культурно-гуманитарное сотрудничество как фактор сближения Казахстана и Азербайджана. Центральная Азия и Кавказ.2020, 23(1), 88-101.*

**Asmar Vuqar Shukurlu**
***Doctoral student at Baku State University***

**The Role of Kazakhstan – Azerbaijan Relations in the Integration of Central Asia with the West (1991-2022)**

**SUMMARY**

The research paper provides a comprehensive analysis of the historical evolution, geo-economic foundations, and strategic partnership prospects between Kazakhstan and Azerbaijan since their independence. The article examines the development stages of the political dialogue between Baku and Astana, the establishment of the legal-normative framework, and multilateral cooperation within international organizations, particularly the Organization of Turkic States during the 1991-2022 period. The role of regional transport-logistics networks, including the Trans-Caspian International Transport Route (Middle Corridor) and the prospective Zangezur corridor, is evaluated within the context of Kazakhstan's strategic interests in Eurasian geopolitics. Furthermore, the scientific significance of hydrocarbon transits via the Baku-Tbilisi-Ceyhan pipeline, green energy projects, and cultural-humanitarian diplomacy in the integration of both states within the West is substantiated. In conclusion, scholarly generalizations are made regarding the geostrategic importance of the allied relations between the two countries in ensuring regional stability.

**Key words:** *Kazakhstan, Azerbaijan, strategic alliance, Organization of Turkic States, regional integration, Middle Corridor, Zangezur corridor, energy security, global integration.*

**Асмар Вугар Шукурлу**
***Докторант Бакинского Государственного Университета***

**Место казахстанско-азербайджанских отношений в интеграции Центральной Азии с Западом (1991-2022 гг.)**

**РЕЗЮМЕ**

В научно-исследовательской работе комплексно анализируются эволюция, геоэкономические основы и перспективы стратегического партнерства между Казахстаном и Азербайджаном с момента обретения ими независимости. В статье рассматриваются этапы развития политического диалога между Баку и Астаной, формирование нормативно-правовой базы и многостороннее сотрудничество в рамках международных организаций, в частности, Организации тюркских государств в период 1991-2022 годов. Роль региональных транспортно-логистических сетей, включая Транскаспийский международный транспортный маршрут (Срединный коридор) и перспективный Зангезурский коридор, оценивается в контексте стратегических интересов Казахстана в геополитике Евразии. Кроме того, научно обосновано значение транзита углеводородных ресурсов по трубопроводу Баку-Тбилиси-Джейхан, проектов зеленой энергетики и культурно-гуманитарной дипломатии в интеграции обоих государств с Западом. В заключении сделаны научные обобщения относительно геостратегической важности союзнических отношений между двумя странами в обеспечении региональной стабильности.

**Ключевые слова:** *Азербайджан, Казахстан, стратегический союз, Организация тюркских государств, региональная интеграция, Срединный коридор, Зангезурский коридор, энергетическая безопасность, глобальная интеграция.*

*Rəyçi: Tarix elmləri doktoru, professor Əsməd Muxtarova*
*Məqalə redaksiyaya daxil olub: 16.03.2026*
*Çapa qəbul olunub: 28.04.2026*

*The date of the admission of the article to the editorial office: 16.03.2026*
*Accepted for publication: 28.04.2026*